Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

30 noyabr 2023-cü il №39



# Qobustan qəsəbəsində YAP fəalları ilə görüş keçirilib



**Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev əvvəlcədən tərtib olunmuş cədvələ uyğun olaraq Qaradağ rayonunun Qobustan qəsəbəsində yerləşən 76 saylı Ərazi Partiya Təşkilatının (Qaradağ Regional Tibb Mərkəzinin) fəalları ilə görüşüb.**





Yığıncaqda Tibb Mərkəzinin YAP üzvü olmayan əməkdaşları və texniki heyət də iştirak edib.

Tədbiri açan mərkəzin direktoru, əməkdar həkim Elmira Rəfailova bildirib ki, YAP fəalları ilə təşkil edilən belə görüşlər partiyanın rayon təşkilatı rəhbərliyi ilə üzvlər arasında əlaqələrin möhkəmlənməsinə, mövcud problemlərin öyrənilməsinə, bu məsələlərin müvafiq qurumlar qarşısında qaldırılmasına və həllinə xidmət edir.

Görüşdə çıxış edən YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev cari ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olduğunu xatırladaraq Azərbaycan xalqının Ümummilli lider Heydər Əliyevin siyasi kursunu dəstəkləməsi nəticəsində ölkəmizin möhtəşəm qələbələr qazandığını bildirib. Rayon partiya təşkilatının sədri Azərbaycanın Qarabağda apardığı lokal antiterror əməliyyatının mahiyyəti, son hadisələr, Yeni Azərbaycan Partiyasının VII qurultayından sonrakı dövrdə partiyada aparılan islahatlar, Azərbaycan Respublikasının Prezidenti, YAP sədri, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yürütdüyü daxili və xarici siyasət, 2020-ci il sentyabrın 27-də başlanan və 44 gün davam edən İkinci Qarabağ - Vətən Müharibəsində əldə olunmuş Böyük Qələbənin əhəmiyyəti, Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq və bərpa işləri, uğurla davam edən Böyük Qatyıdış Proqramı çərçivəsində məcburi köçkünlərin doğma ata-baba yurdlarına qayıdışı və digər məsələlərdən bəhs edərək partiya üzvlərini ölkənin ictimai-siyasi həyatında daha fəal olmağa çağırdı.

Görüş iştirakçıları YAP Qaradağ rayon təşkilatı sədrinin çıxışını diqqətlə dinləyərək vurğulanan fikirlərlə razı olduqlarını bildirdilər. Görüş zamanı çıxış edənlər: Faiq Babaoğlu, Zaur Qəribov, Mehriban Əsgərova, Sehranə Bədəlova, Elçin Zərbəliyev, Əli Fətullayev və başqaları Prezident İlham Əliyevin yeritdiyi daxili və xarici siyasətdən, Qarabağda aparılan antiterror əməliyyatından tam razı qaldıqlarını, istənilən an dövlətimizin başçısının ətrafında birləşməyə hazır olduqlarını və partiya fəalları ilə belə görüşlərin tez-tez keçirilməsinin zəruriliyini bildiriblər. Görüş zamanı partiya üzvləri Qobustan qəsəbəsində olan problemləri: uşaqların asudə vaxtının səmərəli təşkili üçün idman zalının, dərnəklərin, əyləncə yerlərinin təşkili, küçələrin işıqlandırılması, sahibsiz itlərin vətəndaşlara təhlükə yaratması, paytaxta gedən 195 saylı marşrutun yeni və müasir avtobuslarla əvəzlənməsi və qəsəbə daxilində məhəllələrarası ictimai nəqliyyatın təşkilinin yaxşılaşdırılması, qəsəbədaxili yolların asfaltlaşdırılması, kanalizasiya xətlərinin qaydaya salınması və digər problemlərdən bəhs ediblər.

**Görüşdə irəli sürülən təklif və problemlər qeydə alındı.**

**Vüqar MUSAYEV**